# “Bakı Enerji Həftəsi”nin Şuşada keçirilən xüsusi sessiyasında bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzun çıxışı

4 iyun 2022-ci il

## Birlikdə Azərbaycanın təmiz enerji gələcəyinə doğru

- Sabahınız xeyir, hər birinizi salamlayıram.
- Enerji Həftəsi çərçivəsində bu xüsusi sessiyada iştirak etmək çox xoşdur.
- Bu tədbir üçün bundan daha gözəl və simvolik bir məkan təsəvvür etmək mümkün deyil.
- Şuşa Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılmış şanlı zəfərin simvoludur.
- Şübhəsiz ki, bu möhtəşəm şəhər gələcəkdə də bir çox yerli və beynəlxalq tədbirlərə ev sahibliyi etməyə davam edəcək.
- Bir neçə həftə bundan əvvəl keçirilmiş Kulinariya Festivalı zamanı bura gəlmişdim.
- Yenidən burada olmaq çox xoşdur.
- Şuşa əsrlərlə Azərbaycanın mədəniyyət paytaxtı olub.
- İndi isə bu şəhər və ümumilikdə Qarabağ bölgəsi dayanıqlı inkişafın mərkəzinə çevrilir.
- Azərbaycan bu bölgəni yaşıl enerji zonasına çevirmək niyyətindədir.
- Bu isə burada istehsal və istehlak ediləcək enerjinin xalis sıfır emissiyalı və beləliklə təmiz və dayanıqlı olacağını göstərir.
- Dünyanın enerji keçidi prosesinə töhfə vermək üçün bundan daha yaxşı yol ola bilməz.

### Enerji keçidi və bp-nin rolu

- Son bir neçə il heç kəs üçün asan olmayıb.
- Qlobal pandemiya, Ukrayna böhranı və onun fəsadları, təxirəsalınmaz iqlim dəyişikliyi təhlükəsi.

- Bütün bunlar, demək olar ki, enerji keçidini sürətləndirdi.
- İndi artıq bu, təkcə iqlim məsələsi deyil. İndi bu, həm də enerjinin təhlükəsiz, etibarlı və sərfəli olması məsələsidir.
- Bu isə bir şirkət kimi bp-nin  rolunu daha da aydın edir – rolumuz dünyanın enerji ehtiyacını qarşılamağa davam etməkdir.
- Biz etibarlı, sərfəli və zaman keçdikcə daha təmiz enerji təmin etməklə təchizatın təhlükəsizliyinə kömək etməliyik.
- İki il öncə qarşımıza yeni hədəf qoyduq.
- Biz 2050-ci ilədək və ya ondan da tez "xalis sıfır" emissiyalı şirkətə çevrilməyi və dünyanın da xalis sıfır səviyyəsinə çatmasına yardım etməyi hədəfləyirik.
- Bu gün biz hədəfimizə doğru inamla irəliləyirik.
- Eyni zamanda biz fəaliyyət göstərdiyimiz ölkələrin "xalis sıfır" səviyyəsinə çatmaq üçün göstərdiyi səylərdə onlara necə dəstək ola biləcəyimizi düşünürük.
- Azərbaycan bu baxımdan bizim üçün əsas ölkələrdən biridir.

**Azərbaycanda yeni enerji erası üçün imkanlar**

- Bu gün Azərbaycan qlobal enerji bazarında öz sözünü demiş bir oyunçudur.
- Onun nəhəng enerji potensialı artan tələbatı ödəməyə yardım edir və həmçinin təchizatın təhlükəsizliyinə və diversifikasiyasına töhfə verir.
- Dünyanın məhz buna ehtiyacı var.
- İnanırıq ki, Azərbaycan gələcəkdə az karbonlu enerji dəyər zəncirlərinin qurulmasında da eyni dərəcədə uğur qazana bilər.
- Çünki, onun qabaqcıl infrastrukturu, güclü tərəfdaşlıqları və zəngin bərpa olunan enerji resursları var.
- Bu sonuncu xüsusilə azad edilmiş ərazilərə aiddir.
- Bu bölgə ölkənin bir sıra ən yaxşı günəş və geotermal ehtiyatlarına, eləcə də quruda yerləşən güclü külək və hidroenerji potensialına malikdir.
- İdarə edilən və fasiləli bərpa olunan enerji mənbələrinin bu cür qarışığı tam "xalis sıfır" emissiyalı sistemin qurulması üçün əla imkan yaradır.

- Və burada bu cür sistemləri sıfırdan başlamaq olar, yəni mövcud infrastruktura uyğunlaşdırmaq lazım gəlməyəcək.
- Bütün bu amillər isə regionu nümunəvi “yaşıl zona”ya çevirə bilər.

**bp necə kömək edə bilər**

- bp az karbonlu enerji ehtiyatlarının işlənməsində Azərbaycana dəstək verməyə hazırdır.
- Biz Energetika Nazirliyi ilə sıx əməkdaşlıq edirik.
- Ötən həftə Nazirliyə Azərbaycanın 2050-ci ilə qədər öz iqtisadiyyatını necə karbonsuzlaşdıra biləcəyi ilə bağlı bir sıra tövsiyələr təqdim etdik.
- Ümid edirik ki, bu tövsiyələr, Qarabağ regionu da daxil olmaqla, ölkənin enerji keçidi üzrə planlarını formalaşdırmağa kömək edəcək.
- Və imkanlar kifayət qədər çoxdur.
- Bura günəş, külək və geotermal enerji kimi bərpa olunan enerji mənbələrinin zəngin potensialının istifadə edilməsindən tutmuş hidrogen və ammonyak istehsalı və karbon tutma kimi az karbonlu həllər daxildir.
- Artıq bəzi sahələrdə işə başlamışıq.
- Məsələn, obyekt və qurğularımızın elektrikləşdirilməsinin yollarını araşdırırıq.
- Buna dəniz platformalarımızın enerji təchizatını şəbəkə və ya üzən külək turbinləri vasitəsilə təmin etməklə nail olmaq mümkündür.
- Həmçinin bunu Səngəçalda qaz turbinləri əvəzinə şəbəkəyə qoşulmaqla da edə bilərik. Bu isə imkan verər ki, istifadə etmədiyimiz qazı Cənub Qaz Dəhlizi ilə ixrac edək.
- Və ya bərpa olunan enerji mənbələrini götürək.
- Cəbrayılda 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi üzrə danışıqları yekunlaşdırmaq üzrəyik.
- Elə indi məmnuniyyətlə bildirmək istəyirəm ki, bu gün biz Energetika Nazirliyi ilə İcra Müqaviləsinin müddətini uzadacağıq.
- Biz birlikdə layihənin növbəti mərhələlərini sürətlə irəlilətməyə imkan verəcək innovativ yanaşma müəyyən etmişik.

- Bu, mühüm bir addımdır və bizi layihənin icrasının başlanmasına daha da yaxınlaşdırır.
- Görmüşük ki, böyük işlər birlikdə görüldükdə necə sürətli olur.
- Beləliklə, mən bu gün həmçinin məmnuniyyətlə elan etmək istəyirəm ki, biz bərpa olunan enerji mənbələri üzrə bu cür potensial layihələrin araşdırılması üçün SOCAR-la əməkdaşlığa başlayırıq.
- Bütün bunlar Azərbaycanda ilk virtual elektrik stansiyası modelinin yaradılması üçün imkan yarada bilər.
- Nəhayət, bütün bu işlər gələcəkdə səriştəli və ixtisaslı işçi qüvvəsi tələb edəcək.
- Buna görə də məmnuniyyətlə bildirmək istəyirəm ki, biz həmçinin Azərbaycan Dövlət Neft və Sənaye Universitetində bərpa olunan enerji mənbələri üzrə yeni magistr proqramının yaradılmasına kömək edirik.
- Ümid edirik ki, bu proqram Azərbaycan öz enerji keçidində irəlilədikcə ölkədə bərpa olunan enerji mənbələri üzrə yerli mütəxəssislərə artan tələbatı ödəyəcək.

**Yekun**

- Beləliklə, gördüyünüz kimi, qarşıda çoxlu möhtəşəm imkanlar var.
- Ötən 30 il ərzində biz Azərbaycan və qlobal tərəfdaşlarla işləmək şərəfinə nail olmuşuq. Və biz burada enerji sahəsində ən güclü tərəfdaşlıqlardan birini qurmuşuq.
- İndi isə biz bu uğuru davam etdirməyə hazırıq.
- Azərbaycana öz yeni, təmiz enerji gələcəyini formalaşdırmağa kömək etməyə hazırıq.
- Qarşıda hələ görülməli çox iş olsa da, mən əminəm ki, tərəfdaşlığımızın gücü bütün bunları reallığa çevirəcək!
- Təşəkkür edirəm.

-SON-